***Ölkə Prezidenti cənab İlham Əliyevin işğaldan azad olunmuş rayon və bölgələrimizə davam edən səfərləri zamanı həmin ərazilərdə yeni strateji obyekt və müəssisələrin təməlinin birbaşa dövlətimizin başçısı tərəfindən qoyulması siyasi-iqtisadi cəhətdən müstəsna əhəmiyyət kəsb edir. Bu baxımdan, fevral ayının 14-də ölkə rəhbərinin iştirakı ilə əsası qoyulan Horadiz-Ağbənd dəmir yolunun çəkilişi də mühüm tarixi hadisədir.***



# Horadiz–Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması mühüm tarixi hadisədir

Qeyd edim ki, bu gün Azərbaycan dövləti işğaldan azad edilən ərazilərdə intensiv şəkildə bərpa-quruculuq işləri həyata keçirir. Bu çərçivədə inşasına başlanılan mühüm strateji obyektlərin, müəssisələrin təməlinin şəxsən cənab İlham Əliyev tərəfindən qoyulması isə reallaşdırılan layihələrin xüsusi diqqət mərkəzində saxlandığından xəbər verir. Möhtərəm Prezidentimiz Füzuli rayonunda olarkən Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, 2020-ci il noyabrın 10-da Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanat ölkəmizin öz torpaqlarını işğaldan azad etmək uğrunda apardığı Vətən müharibəsinin Azərbaycanın tam qələbəsilə başa çatmasını hüquqi cəhətdən təsdiq etməklə yanaşı, həm də özündə müharibədən sonrakı dövr üçün regionun iqtisadi inkişafına dair mühüm məqamları əks etdirir. O cümlədən, Bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi vurğulanır.

Beləliklə, fevral ayının 14-də Prezident İlham Əliyev Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlini qoymaqla 10 noyabr bəyanatının həmin maddəsinin icrasına start verdi.

Azərbaycan Prezidenti İlham Əlyev tərəfindən təməli qoyulan və ümumi uzunluğu 100 kilometr olacaq Horadiz-Ağbənd dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi önəm daşıyacaq. Belə ki, əvəlla, bu yolun istifadəyə verilməsi ilə işğaldan azad olunan ərazilərimizə gediş-gəliş daha da asanlaşacaq və alternativ nəqliyyat imkanı yaranacaq.

Bərpa və yenidənqurma prosesindən sonra düşməndən təmizlənən Qarabağ bölgəsinə getmək istəyənlərin sayının çox olacağını nəzərə alsaq, onda bu nəqliyyat infrastrukturunun üstünlükləri barədə aydın təsəvvür yaranar.

Digər tərəfdən, bu xətt Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək, muxtar respublikaya çəkiləcək dəhlizin əhəmiyyətini daha da artıracaq.

Ümumiyyətlə, dəmir yolu nəqliyyatının inkişaf etdirilməsi kontekstində sözügedən dəhlizin istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevrir.

Azərbaycanın hazırda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak etməsi, həmçinin onların birbaşa regional hissəsinin inkişafına maliyyə dəstəyi göstərməsi, Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını gerçəkləşdirməyə imkan yaradacaq. Xüsusilə də yaxın gələcəkdə Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini, onların Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən özəl struktur nümayəndələri ilə əməkdaşlığının qurulması baxımından mühüm önəm daşıyacaq. Təbii ki, bunun respublikamızın iqtisadi inkişafına, eləcə də Naxçıvan Muxtar Respublikasının sosial- iqtisadi sahələrinə müsbət təsiri olacaq.

Beləliklə, Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulması Füzuli, eləcə də işğaldan azad olunan digər rayonlarımızın, bütövlükdə isə ölkəmizin tərəqqisini, nəqliyyat infrastrukturunun güclənməsinü sürətləndirəcək.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***